Əbdürrəhim bəy Haqverdiyev

# XORTDANIN CƏHƏNNƏM MƏKTUBLARI



## MÜQƏDDİMƏ

(əvvəli ötən sayımızda)

Mənim məqsədim bu məsələlərdən söhbət etmək deyil, əgər durub hiyleyişəriyyədən, həmli-bərsihətdən bəhs açsaq, böyük bir kitab yazmaq məcburiyyətində olarıq. Əgər Ağdamın hamı hacılarından və kərbəlayı-məşədilərindən, seyidlərindən, kəndlər arasında olan qurtarmaz və tükənməz müharibələrdən söhbət başlasaq, gərək bir il burada oturaq. Mən yol adamıyam, işim var. Odur ki, Ağdamda dayanmayıb, faytonu qoşdurub yola düşdüm.

(Ardı 5-ci səhifədə)

# XORTDANIN CƏHƏNNƏM MƏKTUBLARI

(əvvəli 1-ci səhifədə)

Bir-iki verst getmişdik ki, "Nəsirbəyli" adlı bir kəndin qabağında bir nəfər müsinni kişi əl eləyib faytonu dayandırdı və yavaşcadan nə dedisə, faytonçu üzünü mənə çöndərib dedi:

**- Bu kişi mənim dayımdır. Şəhərdə vacib işi var, izn verin yanımda əyləşdirim.**

Cavabında dedim:

**- Sənin dayın mənim yanımda da əyləşə bilər. Bahəm söhbət edə-edə gedərik. Təklik də mənə əl verməz.**

Kişi:

**- Çox sağ olun, - deyə əyləşdi yanımda, yola düşdük.**

Bununla adi yol söhbətlərindən başladıq: "Gəlişiniz uzaqdandırmı? Şəhərə buyurmaqda xeyirdimi" və i.a. Axırda bir-birimizin adını xəbər aldıq. Yoldaşımın adı Məşədi Səttardır. Şuşada sərrac dükanı var və hər bazar günü Ağdama gəlib gedərdi. Bu, bir söhbətcil arif adam idi və danışığından əhli-savad olduğu da anlaşılırdı.

Bir qədər getmişdik. "Qarahacılı" deyilən bir yerdə bir qoca kişiyə çatdıq. Təqribən altmış yaşında, qırmızısaqqal, sinəsi açıq, başına papaq əvəzinə yaylıq bağlamış, qabağında bir yüklü uzunqulaq yavaşyavaş gedirdi. Bu kişi dönüb bizə baxıb, Məşədi Səttara salam verdi.

Məşədi xəbər aldı:

**- A Məşədi Səfər, haradan gəlirsən?**

- Burada dəyirmana bir-iki pud buğda aparmışdım. Üyüdüb kəndə qayıdıram.

**- Əhvalın necədir, ev-uşaq salamatdırmı?**

- Nə əhval, ay məşədi? Əhvalım budur ki, görürsən. Qoca vaxtımda görəcəkli günlərim var imiş. Bir vaxt var idi sənin kimi qonaqların iyirmisi qapımdan girərdi. Xəcalət çəkmirdim. İndi... Özün görürsən. İndi, budur, səni görüb xəcalətimdən istəyirəm ki, yer ayrılsın, girim içinə. Mən Məşədi Səfər olam, sən gəlib mənim evimin yavıqlığından ötəsən, mən də səni yoldaşınla bir yerdə aparıb evimdə bu gecə qonaq saxlamayam? Bu mənim üçün ölümdən bədtərdir.

Faytonçu atları tərpətdi. Biz də Məşədi Səfərlə "xudahafiz" edib onu dalda qoyduq.

Məşədi Səttar üzünü mənə tutub dedi:

**- Bu kişi varlı-hallı bir adam idi. İldə bir-iki dəfə Şiraza gedib, oradan neçə yük papaq dərisi gətirərdi. Yaxşı da qazanardı. Bunun evini yıxıb bu halətə salan İmam oldu.**

Mən təəccüblə Məşədi Səttarın üzünə baxdım. Məşədi Səttar dedi:

- Təəccüb eləməyin, mənim sözümün canı var. Bu saat söyləyim. Siz yəqin çox eşidibsiniz. Bir adamın o birisinə acığı tutanda deyir: "İmam başına daş salsın, İmam evini yıxsın, İmam balalarını yetim qoysun"... Hakəza. İndi qulaq verin. Bu bədbəxt oğlu, hər il məhərrəm ayında yeddi gün İmam ehsanı verərdi. Boynuyoğun mollalar, tacirlər, seyidlər, nə bilim kimlər hər gün gəlib yağlı plovdan basırdılar. Nə qədər buna mənasız xərc vururdular. Buna "İmam evini yıxsın" deyirlər, ya yox? Axır kasıb düşüb evini satdı. Evi də yaxşı ev idi; bilmirəm nə qədər pul aldı. Cibində pulun cınqıltısını eşidib dedi ki, gərək gedib ağamı ziyarət eləyim. Bir böyük ziyafət verib təntənə ilə Məşhəd səfərinə getdi. Elə ki ziyarətdən qayıtdı, baxdı gördü pullar xərclənib, ev də satılıb. Əlində maya düzəltmək üçün qədim dost və aşnalarına yönəldi, heç kəs əl tutmadı. Axırda şəhərdə qala bilməyib, arvad-uşağını götürüb o, dağın ətəyindəki kəndə köçdü. Orada bir dükan açıb, təpik vursan uçar. İçində on beş manatlıq mal yoxdur. İndi buna "evini İmam yıxsın" demək olar, ya yox? Özü ölləndən sonra da balaları yəqin dilənəcəklər. Buna "İmam balalarını yetim qoysun" demək olar, ya yox?

Bir qədər gedib uzun bir hasara çatdıq. Hasar bir dağın başında "Qarqar" deyilən bir çaya tərəf enib, çaydan keçib o biri dağın üstünə diklənibdir. Gendən baxanda guya bir bayquş qanadlarını çayın kənarlarına sərib, çaydan su içməkdədir.

Məşədi Səttar dedi:

**- Bu hasara Əsgəran deyərlər. Gərək eşitmiş olasınız.**

Dedim:

- Çox gözəl eşitmişəm və oxumuşam... Bu mənhus hasarın 1905-ci sənədə oynadığı rol cəmi dünyaya məlumdur. Bu, İki qonşu və qardaş milləti bölən bir səddir. Nə qədər bu hasar durub, buna baxan türklərin və ermənilərin yaraları təzələnəcək. Ixtiyar mənim əlimdə olsaydı, bu hasarı, qədim hasardan olmasına baxmayaraq, kökündən qazardım. Bəlkə bayquş kimi göz qabağında durub, keçmiş qanlı günləri baxanların yadına gətirməyə.

Əsgəranı adladıq. Bir də baxdıq, bir nəfər qırmızısaqqal, uzunboylu, arıq kişi, özü kimi bir arıq yabının belində, tərkində xurcun, atılaatıla gəlir. Yavıqlaşıb Məşədi Səttara salam verib keçdi. Məşədi Səttar dönüb dalınca bir qədər baxıb dedi:

**- "Evlərini İmam dağıdanların" biri də budur. Amma bu hamıdan qoçaq çıxıb. Özünə bir çörək pulu yaradıbdır. Qulaq asın bundan sizə bir az söhbət eləyim.**

Dedim:

- Buyur.

**- Bu kişinin adı Məşədi Seyfulladır. Ağdam bazarında dükanı var. Yaxşı evi də var, qonaq gələnə plov da verir. Bu da o biriləri tək varyoxunu xərcləyib, Məşhəd ziyarətinə getmişdi. Gələndən sonra bir az bikar gəzib, arvadının ətəyinin pullarını satıb bir dükan açdı. İlk günü dükana qoyduğu malın qədəri nə artır, nə də azalır. Hər kəs bunun dükanına bir dəfə getsə, onun malının siyahısı həmişə yadında qalar.**

Mən ərz eləyim: on girvənkə yağ, bir düjün karandaş, bir banka zoğal mürəbbəsi, İki qutu cövhər, on girvənkə qənd, bir parça mal piyi, beşaltı ədəd qalay çay qaşığı, bir şüşə sirkə, bir-İki kələf yezd ipliyi, bir pud ağ neft... Xülasə, baxan deyirdi ki, buna on beş manat verən olsa dükanını bağışlayıb çıxıb gedər. Bununla belə, bunun işlərinə baxın. Məşhəddən təzə qayıtmışdı. Hələ heç kəsin bunun xəspuşlanmasından. xəbəri yox idi. Hamı onu varlı hesab edirdi. Bir gün Ağdam bazarına gəlib, xalqı başına cəm edib, bunlara Məşhəd yolunun ağırlığından və bu ağır yolu zəhmət çəkib getməyin savabının ntəhasızlığından, daşların dığırlana-dığırlana ziyarətə getmələrindən söhbət edirdi.

Məşədi and içirdi ki, İmamqulular adlanan bir mənzilə gəlib düşmüşdü. Gördü karvansaranın qapısında böyük qara daşlar yan-yana düşüb. Karvansaranın dərbanı nağıl etdi ki, bu daşlar bu gecə buraya gəliblər; ziyarətə gedirlər, sabah durub bunları burada görməyəcəksiniz. - Sübh, - deyir, - durduq, gördük, həqiqət, o daşlardan bir nişanə yoxdur.

"Çinaran" adlanan mənzilə gəlib haman daşları orada gördüm... Məşədi camaatı inandırmaq üçün neçə dəfə getdiyi İmama and içdi. Camaat da ağızlarını ayırmış onun söhbətlərinə qulaq verib, peydərpey salavat çevirirdi. Qalaq asanların hesabı artdı. Bunu görüb məşədi dedi:

- Camaat, bu saat mənim evimdə bir seyid qızı əyləşib. And olsun gedib üzümü sürtdüyüm qəriblər şahına, bu saat onun əynində libası yoxdur. Mən öz tərəfimdən on manat verirəm. Sizin də kəəminizdən nə gəlir, müzayiqə etməyin.

Məşədinin söhbətindən ürəyi yumşalmış camaat başladı pul toplamağa. Ağır miqdarda bir məbləğ cəm olub məşədiyə vüsul oldu. Neçə vaxtdan sonra işin üstü açıldı. Həqiqətən bir seyid qızı haman günü məşədinin evinə libassız əyləşibmiş, o da məşədinin öz arvadı imiş. Heç kəsə onun arvadının seyid qızı olduğu məlum deyilmiş. Sübh evdən çıxanda məşədi arvadına əmr eləyir ki, o, bazardan qayıdınca libassız əyləşsin. Bu da onun üçün imiş ki, məşədinin andı yalan olmasın.

Bundan da sonra özgə bir mədaxil yolu tapdı. Birdən eşidir ki, filan kənddə filan sərvətdar mərhum olubdur. O saat atını minib gedib oraya. İçəri daxil olub, başlayır hönkürtü ilə ağlayıb başına vurmağa:

**- Əlimdən gedən qardaşım vay! Ümidim vay! Belimin dayağı vay!..**

Habelə... Üç gün yaxa açıb təziyədar olur. Üç gündən sonra mərhumun ailəsinə sərsəlaməti verib deyir:

- Daha mən getdim. Dükanım sahibsizdir. Ancaq bir iş var, deməyə xəcalət çəkirəm.

**- Nə iş var, məşədi? Buyur!**

- Yox, qalsın, bir ayrı gün danışarıq.

**- Axır genə, de görək nədir?**

- Gərək mən söhbəti açmayaydım. İndi ki bir səhv elədim, gərək deyim, rəhmətliyin mənimlə bir xırdaca hesabı var. Keçmişdə mal aparıbdır, bir əlli manat qalıbdır. Mən bir söz demirəm, istəmirəm də. Istəyirsiniz mərhuma halal eləyim. Ancaq deyirəm ki, biləsiniz.

Mərhumun varisləri bir-birinin üzünə baxıb, ürəkləri yumşalmış hallarında ölülərini şüğlizimmə eləmək istəməyib pulları verirlər. Bəzən oxu daşa da toxunur: mərhumun varisləri görürsünüz ki, deyirlər:

**- A məşədi, sənin sözünə inanmamağa haqqımız yoxdur, məşədi kişisən, səndə yalan olmaz. Ancaq nisyə mal almaq mərhumun adəti deyildi. Bir il çılpaq qalmağa razı olardı, üç arşın nisyə qədək almazdı.**

Cavabında məşədi deyir:

- Nə etməli, siz vermirsiniz, mən də istəmirəm. Pul deyəndə əl çirkidir, rəhmətliklə iyirmi il duz-çörək yemişik, qurban olsun o duzçörəyə.

Bunu deyib varisləri şübhəli qoyub atını minib, çıxıb gedir. Bir neçə gündən sonra görürsünüz varislər şübhədən çıxmaq üçün özləri gəlib azdan-çoxdan məşədiyə verib halallıq alırlar. Bu məşədinin peşəsi budur. İndiki dükanı boşdur, gedib ölü sahiblərindən pul istəyəndə deyir:

**- Parçanı mərhum mənim qonşumdan alıbdır. Yanında pul olmayıb, mən vermişəm.**

Bu yaxında "Xocalı" adlanan bir kənd var. Bu günlərdə orada Hacı Zeynal adlı bir varlı kişi vəfat eləyibdir. Məşədi yəqin onun təziyəsindən gəlir. Görəsən varislərindən nə qədər çırpıbdır.

"Xocalı" çayını və "Çaparxana"sını keçib bir səhraya çıxdıq. Yolun altında və üstündə nizamla düzülmüş "Tökmə təpələr" var idi. Məşədi Səttar nağıl etdi ki, bu təpələr də qədim hasardandır. Burada qədim zamanda Sultan Səlimlə Şah Ismayılın arasında böyük müharibələr olubdur.

Bir az getmiş gördük ki, bir nəfər şəxs bir kürən atın belində yel kimi gəlir. Atın ayaqları guya yerə dəyməyirdi. Yaxınlaşıb, salam verib, güllə kimi ötüb keçdi.

Məşədi Səttar dedi:

**- Bu da bir tühaf vücuddur; yol üstüdür, bundan da bir qədər sizə nağıl eləyim, vaxt keçsin.**

Dedim:

- Buyur.

Məşədi başladı:

**- Bu şəxsin adına Hacı Mehdi oğlu Əsgər deyirlər. Atası buna böyük sərvət qoyub getmişdi. Sərvətin çox yarısını dost-aşna yolunda xərc etdi. Qış fəslində az gecə olardı ki, bunun evində neçə nəfər qonaq plov yeməsin. Bahar fəslində hər həftə dost-aşnalarını şəhərin ətrafındakı çay kənarlarına, meşələrə, bulaqlara, "Turş su" deyilən yerə qonaq çağırıb, xanəndə və nəvazəndələrlə onlara kef verərdi. Bir dəfə dost-aşnasına xəbər verdi ki, hamısı cümə günü ona, aşırma plova qonaqdırlar. Biz çox fikir elədik ki, "aşırma plov" bu nəyə deyir, bir şey anlaya bilmədik.**

Axşam cəm olduq onun evinə. Adama bir-İki stəkan şirin çay içib bir qədər söhbət edəndən sonra hər İki adama bir məcməyi plov gəldi və hər məcməyidə İki ədəd kəklik ayaq-ayağa bağlanıb plovun üstündən aşırılmışdı. Aşırma plov bu imiş. Qalan dövlətinin də axırına Irandan gəlmiş bir dərviş daş atdı. Dərviş elmi-kimyada məharət yetirdiyinə bunu inandırıb və hər mədəni döndərib qızıl eləmək sirrini bildiyini söyləmişdi. Bu bədbəxt oğlu aldanıb dərvişi gətirib saldı evinə. Əlində olan mayanın hamısını kürədə yandırandan sonra, bir səhər durub dərvişi qaçmış gördü.

İndi bunun Ağdamda bir xırdaca dükanı var, oturub alış-veriş eləyir. Hər nə qazansa dost-aşna yolunda xərc eləyir. Əgər bir nəfər onun axırıncı köynəyini istəyə, yəqin çıxardıb verər. İndi bundan sizə bir hekayə nağıl eləyim.

Bizim Ağdam bazarını gördünüz. Tühaf bir bazardır. Orada bu bazardan o bazaradək tamam bikarçılıqdır. Alış-veriş nüdrətən olur. Bəlkə bir yerdə ölü düşə, kəfən, sidrü kafur üçün bazara gələn ola. Dükançılar dəstə-dəstə o dükanda, bu dükanda yığılışıb, boş söhbətlərlə vaxt keçirirlər. İttifaqən, Bakıdan, Tiflisdən, ələlxüsus Moskvadan tacirlərin biri qayıdıb gələndə bazarda bayram olur. Neçə günlərlə bədbəxtlərə rahatlıq verməyib, hər gün başına cəm olub, onu gördüyündən, eşitdiyindən, gedib gəldiyindən danışdırıb qulaq asırlar. Haman buradan atlı keçən oğlan birdən bazardan yox oldu. Tamam İki həftə dükanı bağlı qaldı. Sonra məlum oldu ki, Qazax qəzasında bir nəfərdə "Diliboz" cinsindən bir atın sorağını eşidib, onun dalınca gedibdir. Haman atdır ki, İndi altında idi. İki həftədən sonra bazar adamı bunun qayıtdığından xəbər tutub, birbirlərinə söz verdilər ki, Hacı Mehdi oğlundan haraya getdiyini və bu İki həftənin ərzində nə yerlərdə gəzdiyini bir nəfər xəbər almasın. Guya ki, o, buradan heç bir yana getməmişdi. Əsgər gəlir bazara. Dükanların qabağında dolanır. Ancaq bir dükançı buna etina eləməyir. Salam verir. Salamını soyuq bir halda alıb, yenə işinə məşğul olur. Əsgərin bağrı çatlayır. Necə ola bilər ki, bu, bir belə zəhmət çəkib gedib "Diliboz"lardan at gətirsin, amma bunu bir adam xəbər almasın! Bir də baxır, görür, bir dükanda beş-on nəfər dükançılardan cəm olub söhbət eləyirlər. Birbaş yanaşır oraya:

- Salaməleyküm.

**- Əleykəssalam, ağa Əsgər, niyə əyləşməyirsən?**

Əsgər əyləşir. Camaat öz söhbətində davam eləyir. Əsgər nə qədər gözləyir ki, bütün bu müddətdə harada olduğunu bir xəbər alan olsun. Ta o da nə növ gedib gəldiyini söyləsin. Bunun əvəzində dükançılar hər biri bir bəhanə ilə durub dağılmağa üz qoyurlar. Birisinin dükanı sahibsiz qalıb, birisinin namazı keçir, birisi axşam yeməyi üçün tədarük görməyibdir, birisi poçtla gərək pul barat eləsin. Xülasə, bir-bir durub gedir, Əsgəri dükan sahibi ilə bir yerdə qoyurlar. Dükan sahibi isə dəftər-çotgəni çıxarıb hesaba məşğul olur. Əsgər bir qədər əyləşib qalxır ayağa.

- Xudahafiz!

**- Xudahafiz, ağa Əsgər!**

Bunu deyib dükançı yenə başını aşağı salıb məşğul olur. Əsgər məyus qayıdır öz dükanına. Dükançılar bununla bir neçə dəfə belə rəftar edəndən sonra Əsgər əhvalatı duyur. Bir dəfə yenə görür ki, bir dükanda neçə nəfər əyləşib laqqırtı vurur. Durub yavaş-yavaş o tərəfə yönəlir. O biri dəfələr tək dükançılardan biri qalxıb deyəndə ki:

- A kişi, yaxşı yadıma düşdü, Hacı İmamqulunun vekselinin vaxtıdır, aparım onun pulunu verim.

Əsgər ondan cəld qalxıb, əbanın altından beşaçılan tüfəngi çıxardıb, patronlayıb dedi:

**- Əyləş yerə! Yoxsa odladım! Hər kəs yerindən qalxsa, atamın oğlu deyiləm cəmdəyini yerdə qoymasam!**

Hamı susub sakit əyləşdi. Əsgər dedi:

- İndi qulaq verin. Bir nəfərdən xəbər tutdum ki, Qazax mahalında Rüstəm bəyin ilxısında "Diliboz" nəslindən bir at var ki, dünyanın yarısına dəyər...

Burada Əsgər İki həftənin içərisində başına gələnləri, tüfəngi adamlara tərəf tutmuş nağıl eləyib qurtarandan sonra dedi:

**- İndi mən sözümü qurtardım. Hər kəsin harada nə işi var isə buyurub gedə bilər.**

Camaat gülüşüb xəbər verdilər ki, heç kəsin heç yerdə işi yoxdur. Hamı avaradır. Elə məhz onunla şuxluq eləmək istəyirdilər.

Gecə saat on İkiyə yaxın Şuşaya varid olduq. Ancaq şəhər görünməyirdi. Ətrafda xarabalıqdan savay bir şey yoxdu. Səbəbini xəbər aldım. Məşədi

Səttar gülüb dedi:

- Burada şeytan özünə doqquz gün, doqquz gecə toy elədi. Şəhərin evlərindən məşəllər qayırmışdılar. Gecə-gündüz tüfəng səsləri kəsilmirdi. Hətta şeytan tərəfindən gəlmiş bir yaranal şəhərin içində top da atırdı. Toy çox şükuhlu keçdi. Camaatdan da çox qırılan oldu. Ancaq nə etməli, şeytan əməlindən xata çıxmasa olmaz.

Dedim:

**- Doğru buyurursan.**

Faytonçu soruşdu:

- Hara düşəcəksən?

Dedim:

**- Təbrizli Mirzə Qoşunəlini tanıyırsan?**

Dedi:

- Mirzə Qoşunəlini Qarabağda uşaqlar da tanıyır.

**- Onda birbaş onun evinə sür.**

- Baş üstə.

Neçə dəqiqədən sonra fayton bir həyətdə dayandı. Bu, Mirzə Qoşunəlinin evi idi. Qapı açıldı. Gödək boylu bir adam başını çölə çıxardıb xəbər aldı:

**- Kimsən?**

Cavabını faytonçu verdi:

- Qonaqdır. Tiflisdən gəlir. Sizlə işi var.

**- Buyursun, buyursun!**

Mirzə pilləkəndən aşağı enib, özü qabaqca mənə salam verdi:

- Salaməleyküm, siz çox xoş gəlibsiniz. Buyurun içəri.

Faytonçunun haqqını verib, Məşədi Səttarla vidalaşıb, mirzənin dalınca daxil oldum mənzilə. Mirzə yer göstərdi:

**- Buyurun, əyləşin. Yəqin yol sizi yorubdur. Samovar da hazırdır. Çay içmək mənim üçün bir azar olubdur. Sübhdən gecə yatıncaya qədər gərək mənim samovarım qaynasın. Içdiyim çayın hesabını da bilmirəm. Deyirlər çay nədir, say nədir.**

Mirzə İki stəkan çay töküb birisini mənim qabağıma, birisini də əyləşib öz qabağına qoydu:

- Sizin təşrifiniz həmişə Tiflisdə olur?

**- Bəli, Tiflisdə oluram. Ancaq səyahəti xoşladığımdan, başqa şəhərlərə və vilayətlərə də gedirəm.**

- Əlbəttə, səyahət çox gözəl şeydir. Deyirlər çox oxuyan çox bilməz, çox gəzən çox bilər.

**- Həqiqət düz buyurursunuz. Amma necə ki mən eşitmişəm, sizin elminizə heç bir səyyah çata bilməz. Mən Qafqazın hər bir şəhərində sizing tərifinizini eşitmişəm. Yəqin siz Tiflisdə Ağ Mollanı tanıyırsınız.**

- Xidmətlərinə çata bilməmişəm, amma bələdiyyətim var, alim adamdır.

**- Sizin tərifinizi mənə o söylədi. Mən bir müşkül işə düşüb, oradan buraya xidmətinizə gəlmişəm.**

(ardı növbəti sayımızda)